# Bakı Təşəbbüs Qrupunun fəaliyyəti təqdirəlayiqdir

**"Bakı Təşəbbüs Qrupunun "Dekolonizasiya, beynəlxalq diplomatiya və müasir dünyada kommunikasiyanın rolu" mövzusunda keçirdiyi "dəyirmi masa"da yalnız kanak xalqının deyil, müstəmləkə altında yaşayan xalqların haqları ilə bağlı məsələlər gündəmə gətirildi. Azərbaycanın bu istiqamətdə atdığı addımlar, BMT Baş Assambleyasnın "Müstəmləkə ölkələrinə və xalqlarına müstəqilliyin verilməsi haqqında Bəyannamə"sinə (1514 saylı qətnamə) böyük dəstəkdir".**



Bu fikirləri qəzetimizə açıqlamasında Milli Məclisin deputatı Aydın Hüseynov deyib. Deputat qeyd edib ki, müstəmləkə əsarətindən qurtulmaq həmin xalqların fundamental hüququdur: "Ona görə də Azərbaycan özü üçün daha yaxşı və layiqli gələcək arzu edən xalqlara daim dəstək verir. Biz bəzi dövlətlər kimi separatçılığı, ya da yalançı "milli özünü təyinetmə hüququ"nu müdafiə etmirik. Azərbaycanın atdığı addımlar müstəmləkəçiliyin ləğvinə nail olmağa hesablanıb. Bu baxımdan, əzilən, müstəmləkə altında inləyən xalqların müstəqillik uğrunda ədalətli mübarizəsini dəstəkləyən Bakı Təşəbbüs Qrupunun fəaliyyəti də təqdirəlayiqdir".

Aydın Hüseynov bildirib ki, bu gün Fransa dünya jandarması rolunda çıxış etmək istəyir: "Amma Fransanın yürütdüyü siyasət Avropa dövlətləri tərəfindən də dəstəklənmir. Bu ölkə təkcə dənizaşırı ölkələrdə qanunsuz əməllər törətmir, Afrikada yarımçıq qoyduğu müstəmləkəçilik iştahasını dünyanın bir başqa regionunda həvəslə davam etdirmək istəyir. Bu gün bir sıra xalqlara qarşı edilən zülmlərin, işgəncələrin, təxribatların altında Fransanın imzası var".

Deputat həmçinin Fransanın BMT Təhlükəsizlik Şurasının 5 daimi üzvündən biri olduğunu xatırladaraq əlavə edib ki, bu və ya digər beynəlxalq qanunların qəbulunda, ya da onlara veto qoyulmasında bu ölkənin xüsusi statusu var: "Ona görə də rəsmi Paris mövqeyindən sui-istifadə edərək ağa qara, qaraya isə ağ deyə bilir. Ermənistanın Azərbaycan torpaqlarında yaratdığı separatçı qurumun cinayətlərinə, terror əməllərinə "azadlıq mübarizəsi" möhürünü vuran Fransa Yeni Kaledoniyada, Fransa Polineziyasında, Korsikada xalqların müstəmləkəçiliyə qarşı mübarizəsinə fərqli yanaşır".

Aydın Hüseynov yekunda deyib ki, Bakı Təşəbbüs Qrupunun keçirdiyi "dəyirmi masa"da edilən çağırışlar beynəlxalq təşkilatlar tərəfindən lazımi şəkildə dəyərləndirilməli, müstəmləkə siyasəti yürüdən dövlətlərin bəşəri cinayətləri ifşa olunmalı, onların insan hüquqları ilə bağlı yol verdikləri pozuntular dünya ictimaiyyətinə çatdırılmalıdır.

*Nəzrin QAFARZADƏ,*
*"Azərbaycan"*

Azərbaycan.- 2024.-21 iyun, №127.-S.10.